# Biləsuvarda QHT ekoloji aksiya keçirdi



Gənclər Fondunun maliyyə dəstəyi ilə Biləsuvar Yeniyetmə və Gənclər İctimai Birliyi "Yaşıl dünya naminə" layihəsi çərçivəsində təmizlik və ağacəkmə aksiyası keçirib. Aksiya Azərbaycanın Milli Qəhrəmanı  Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksinin təşkilatçılığı və Biləsuvar Rayon İcra Hakimiyyətinin dəstəyi ilə baş tutub.

40 məktəblinin qoşulduğu tədbirdən öncə çıxış edən layihə rəhbəri Ülvi Həzizadə dövlət gənclər siyasəti, Gənclər Fondu, həmçinin layihənin əhəmiyyəti və təşkilatın regionda göstərdiyi fəaliyyət barədə tədbir iştirakçılarına məlumat verib. Kompleksin rəhbəri Aqşin Bağırov bildirib ki, bu gün dünyanı narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir: "Ölkəmiz də qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Onun fəsadlarına qarşı mübarizəyə diqqətin artırılması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyev 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir". Çıxış edən Azad Quliyev isə layihənin aktuallığını qeyd edib, dünyanı narahat edən ekoloji problemlər, iqlim dəyişiklikləri və onların canlı aləmə mənfi təsirlərindən, ekoloji mədəniyyətdən söz açıb.

Çıxışlardan sonra məktəblilərin də iştirakı ilə müəyyənləşdirilmiş ərazi tullantılardan təmizlənib. Sonra 50 həmişəyaşıl şam ağacı əkilib. Sonda iştirakçılara fəal iştiraklarına görə sertifikatlar təqdim olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 8 noyabr (№ 247).- S.14.